***İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ***
***ISSUES IN INCLUSIVE EDUCATION***

*UOT 373.67*

# TƏHSİLDƏ BƏRABƏRSİZLİK

**Ləman Nemət qızı Məmmədli**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-4999-3245
**E-mail:** mammedlileman@mail.ru

***Açar sözlər:*** *Təhsil, təhsildə bərabərsizlik, inklüziv təhsil, yoxsulluq və təhsil, sosial-iqtisadi faktorlar, təhsilin keyfiyyəti, şagird nailiyyətləri, beynəlxalq qiymətləndirmələr (PISA, TIMSS).*

***Ключевые слова:*** *Образование, неравенство в образовании, инклюзивное образование, бедность и образование, социально-экономические факторы, качество образования, успехи учеников, международные оценки (PISA, TIMSS).*

***Key words:*** *Education, educational inequality, ınclusive education, poverty and education, Socio-economic factors, quality of education, student achievement, ınternational assessments (PISA, TIMSS).*

Təhsil, 1948-ci ildə BMT-nin İnsan Hüquqları üzrə Ümumi Bəyannaməsində təməl insan hüququ kimi təsbit edilmişdir. Bu, həmçinin qlobal yoxsulluğun aradan qaldırılmasında, sağlamlığın yaxşılaşdırılmasında və insanların cəmiyyətlərində fəal iştirak etməsini təmin etməkdə vacib rol oynayır [BMT, 1948]. İnklüziv təhsil çox sadə bir anlayışdır: hər kəsin təhsilə çıxış hüququnun tanınması və təhsil prosesindən kənarda qalmamasıdır. Əslində, bir çox insan qrupları bu hüquqdan istifadə edə bilmir, buna görə də beynəlxalq sənədlərdə və inkişaf strategiyalarında bu təhsil hüququnun nəyə aid olduğu daha dəqiq şəkildə izah edilir. Getdikcə daha çox qəbul edilir ki, inkişaf əməkdaşlığı insan hüquqları çərçivəsində olmalı və buna görə də bütün səviyyələrdə təhsili təşviq etməlidir. Təhsil yoxsulluğun azaldılması üçün mühüm komponent kimi geniş qəbul edilir. Bununla belə, bu əlaqə mürəkkəbdir və uşaqları sadəcə məktəblərə qoymaq yoxsulluğun, qeyri-bərabər resurs bölgüsünün və qlobal miqyasda mövcud olan haqsızlıqların böyüyən problemlərini həll etmir.

Araşdırmalar göstərir ki, təhsilin inkişaf faydaları əhəmiyyətlidir: məsələn, qadınların savadlılığı və təhsili həm qadınların, həm də onların uşaqlarının sağlamlıq və yaşam şanslarını yaxşılaşdırır. Təhsil, həmçinin qlobal icmanın ətraf mühitə daha məsuliyyətli yanaşmasını təmin etmək üçün vacibdir. Təhsildə bərabərsizliklər əsas təhsildən əvvəl başlayır. Sosial-iqtisadi və mədəni səviyyə baxımından üstünlük təşkil edən ailələrdən olan uşaqlar məktəbəqədər təhsilə başlamazdan əvvəl təlim prosesində irəliləyiş əldə edirlər və məktəbəqədər təhsilə daha yüksək nisbətdə getməklə, onların məktəbə hazırlığı ibtidai təhsilə başlayanda dezavantajlı yaşıdlarından xeyli yüksək olur. Sosial-iqtisadi cəhətdən imkansız ailələrin məktəbəqədər təhsilə çıxışı məhdud olduqda, müxtəlif sosial-iqtisadi səviyyələrdə şagirdlər arasında başlanğıc fərqi artır. Buna görə də, əsas təhsilin başlanğıc nöqtəsində şagirdlər sosial-iqtisadi və mədəni səviyyələrindən asılı olaraq üstünlük və ya çatışmazlıqlarla təhsilə başlayırlar. Bu fərqlər əsas təhsildə adekvat şəkildə kompensasiya edilmədikdə, nailiyyət fərqi genişlənməkdə davam edir.

TIMSS araşdırması göstərir ki, nailiyyətlərdəki boşluqlar məktəbəqədər, baza təhsildə başlayan problemlərdən yaranır.

**Azərbaycanda TİMSS (2019) nəticələrindəki təhsildə bərabərsizliklər**

TIMSS 2019 məlumatlarına əsasən ölkələr mövcud problemlərin öhdəsindən gəlmək üçün dəlillərə əsaslanan məqsədyönlü strategiyaların hazırlanmasına davam etməlidirlər. Belə ki, "Riyaziyyat" fənni üzrə minimum bilik səviyyəsinə çatan 4-cü sinif şagirdləri arasında oğlan və qızların nisbəti bir-birinə yaxın olsa da, TIMSS 2015-lə müqayisədə oğlanların orta balı qızlardan yuxarı olmuşdur. Bu fərqin aradan qaldırılması üçün ibtidai təhsilin ilk illərindən başlayaraq, əlavə resurslara və diferensiallaşdırılmış təlimə, yeni strategiyalara ehtiyac olduğu ortaya çıxır. 8-ci sinifdə isə bir çox ölkələrdə minimum bilik səviyyəsinə çatan qızların nisbəti oğlanlardan çox olmuşdur ki, bu da bərabərsizliyin azaldılması üçün səylərin davam etdirilməsinə ehtiyac olduğunu göstərir.

Tarix boyu təhsilə həmişə önəm verilsə də, bugünkü cəmiyyətlər üçün daha xüsusi əhəmiyyət kəsb etdiyini söyləmək olar. Sənayeləşmə və sonrakı qloballaşma ilə yeni biznes sahələrinin yaranması cəmiyyətlərin daha ixtisaslı işçi qüvvəsinə ehtiyac duymasına səbəb oldu. Bu ehtiyacı ödəmək üçün xüsusilə 20-ci əsrdən etibarən qlobal məktəb təhsili və məktəbə çıxış nisbətlərində əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. Təhsildəki bu inkişaflar əsasən dövlətin nəzarəti altında həyata keçirilirdi. Təhsil müəssisələri, xüsusən də icbari təhsillə bağlı formalaşdırıcı və dominant güc elementinə çevrilmiş dövlətlərin təhsil üzərində bu nəzarəti uzun müddətdir müzakirə olunur. Bütün uşaqların məktəbə çıxışı prosesini sürətləndirmək üçün dövlət resurslarından və təhsilə nəzarətdən istifadə edilməsi məqbul sayıla bilər ki, bu da təhsildə bərabər imkanlara doğru ilk addımdır. Bununla belə, Bekkerə görə [2 s.3], təhsil sahəsindəki genişlənmə və islahatlara baxmayaraq, sosial təbəqələr arasında fayda və xərclər balansı sabit qaldığından təhsildə bərabərsizliklər davam edir. İndiki vaxtda məktəbə getməkdən daha çox keyfiyyətli təhsilə çıxış anlayışı etibarlılıq qazanmağa başlayıb. Marger [2014, s. 213] bildirir ki, əgər sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq bütün şagirdlər və tələbələr üçün keyfiyyətli təhsilə çıxış eyni olsaydı, o zaman onlar arasında rəqabət bərabər olardı.

Bu səbəbdən, xüsusilə qərb cəmiyyətlərində təhsildəki bərabərsizlikləri aradan qaldırmaq və bütün uşaqların akademik uğur şanslarını artırmaq üçün islahatlar, elmi araşdırmalar, ictimai və siyasi müzakirələr aparılır [Siraj və Mayo, 2014]. Demək olar ki, PISA və TIMSS kimi beynəlxalq qiymətləndirmə araşdırmalarından əldə edilən ölkə xalları, xüsusən də son illərdə bu cür müzakirələrin təməlində mühüm rol oynayır. Bu cür araşdırmalar təhsildə bərabərlik mövzusunda ölkələrin beynəlxalq mövqeyi haqqında mühüm məlumatlar verir [Özer, et al. 2020]. Təhsil, məktəblər, müəllimlərin keyfiyyətinə dair beynəlxalq göstəricilərlə və digər elementlərlə bu müqayisələr siyasətçilərin təhsillə bağlı qərarlarına hər gün daha çox təsir etməyə başlayıb [Dronkers, 2010]. Belə beynəlxalq müqayisələr ölkələr arasında rəqabəti artırdığından, onların hökumətləri təhsil üzərindəki hegemonluğunu azaltmağa və təhsildə elmi islahatlara yönəltdiklərini söyləmək olar. Təhsildəki imkanlardan müəllimlərin təhsilinə, təhsilə ayrılan büdcədən coğrafi faktorlara, istifadə edilən ölçmə və qiymətləndirmə metodundan sosial perspektivə qədər müxtəlif amillər təsir edə bilər. Bunlardan biri belə fərd üçün əlverişsiz vəziyyət yaradır və təhsil imkanlarının olmamasına səbəb ola bilər. Bundan əlavə, tələbələrin sosial-iqtisadi mənşəyi, yaşadıqları region və ya cəmiyyətlə müəyyən edilən gender rolları da şagirdlər arasında fərqlərə səbəb ola bilər. Bir çox ölkələrdə təhsildəki bərabərsizliklərin

qarşısında duran ən mühüm maneələr arasında yüksək gəlir bərabərsizliyi və yoxsulluğu göstərmək olar. Bəzi ölkələrdəki araşdımalar göstərir ki, təhsil səviyyəsi ilə yoxsulluq arasında güclü əlaqənin olduğunu və buna görə də fərdlərin təhsil səviyyəsi artdıqca yoxsulluq riskinin azaldığını ortaya qoydu. Bu kontekstdə bütün tələbələrin bərabər rəqabət apara bilməsi üçün yüksək gəlir bərabərsizliyinin qarşısı prioritet olaraq alınmalıdır. Təhsildə bərabərsizliklərin aradan qaldırılması üçün təhsil, sosial, iqtisadi və siyasi sahələrdə vahid yanaşma ilə bu problemi həll etmək, müzakirə etmək və həll yollarını birlikdə hazırlamaq lazımdır. Aydındır ki, təhsildə qeyri-bərabərliyin aradan qaldırılması çətindir və uzun müddət tələb olunur. Bu səbəbdən mövcud təhsil sistemi daxilində məktəb mühitində şagirdlərin yaşadıqları bərabərsizlikləri minimuma endirmək və onların akademik uğurlarını dəstəkləyərək sosial-iqtisadi inkişaflarını təmin etmək üçün inklüziv təhsil yanaşmasından faydalanmaq vacibdir. İnklüziv təhsil, xüsusilə uşaqların və digər həssas qrupların təhsildən kənar qalmamasına çalışır. Bu prosesin təməli təhsil hüququdur və hər kəsin təhsilə bərabər çıxışını təmin etməyi hədəfləyir. BMT-nin UNESCO təşkilatına görə, inklüziv təhsil "öyrəncinin iştirakı, bacarığı və uğurunu məhdudlaşdıran maneələri aşmağa yardım edən bir prosesdir" [UNESCO, 2017]. Bu yanaşma, fərqli fərdi xüsusiyyətlərin təhsildən kənarlaşdırılması problemini deyil, əksinə bu müxtəliflikləri təhsil mühiti üçün zənginləşdirici amil olaraq qəbul edir.

**İnklüziv təhsil**

Əlilliyi olan şəxslərin təhsil hüquqlarını əhatə edən Birləşmiş Millətlər Təşkilatının (BMT) "Əlillərin Hüquqları haqqında" Konvensiyası, inklüziv təhsili hər kəs üçün ən uyğun təhsil mühiti olaraq təşviq edir [BMT 2008]. Eyni zamanda, BMT-nin "Uşaq Hüquqları Konvensiyası"nın 28-ci maddəsi hər bir uşağın təhsil hüququnu təsdiqləyir və bu hüququn bərabər imkanlar əsasında təmin edilməsini müdafiə edir, [BMT, 1989]. Maddədə qeyd edilir ki, təhsil uşaqların şəxsiyyətini, istedadlarını, əqli və fiziki qabiliyyətlərini inkişaf etdirməyə, insan hüquqları və əsas azadlıqlara, sülh, dostluq, anlayış, tolerantlıq və bərabərlik prinsiplərinə əsaslanan həyat tərzini öyrənməyə, habelə ətraf mühitə hörmət bəsləməyə yönəldilməlidir. Bu kontekstdə əlilliyi olan uşaqların, əlilliyi olmayan yaşıdları ilə birlikdə təhsil alması xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, BMT-nin Dayanıqlı İnkişaf Məqsədi 4 də hər kəs üçün inklüziv və bərabər keyfiyyətli təhsil təminatına diqqət çəkir.

İnklüziv təhsil əlilliyi və öyrənmə çətinlikləri olan uşaqların təhsilini adi uşaqlarla eyni sinifdə həyata keçirmək üçün yeni bir yanaşmadır. Bu, bütün uşaqların – əlilliyi olan və olmayan – ümumi məktəblərə və icma təhsil mühitinə daxil olaraq, onlara uyğun dəstək xidmətləri şəbəkəsi ilə birlikdə təhsil almağı nəzərdə tutur. İnklüziv təhsil, yalnız müxtəlif növ öyrənənlərin ehtiyaclarını əhatə edən və onların ehtiyaclarına uyğunlaşan çevik təhsil sistemi ilə mümkündür.

İnklüziv təhsil bütün öyrənənlərin müxtəlif ehtiyaclarını həll edir və məktəblərdəki maneələri aradan qaldırır. Bu, təhsil sisteminin bütün öyrənənlərə çatmaq qabiliyyətini gücləndirmək prosesidir. Bu təhsil yanaşması bütün şagirdlərə akademik və sosial nailiyyətlər üçün daha böyük imkanlar yaradır. Bu, sosial, istirahət, incəsənət, idman, musiqi, gündüz qayğı və məktəbdən sonrakı qayğı, əlavə dərslər, dini fəaliyyətlər və digər bütün tədbirlərdə iştirak etmək imkanlarını əhatə edir.

Təhsil əsaslandırması ondan ibarətdir ki, bütün uşaqlar inklüziv məktəblərdə birlikdə təhsil almalıdırlar və məktəblər xidmət göstərdikləri şagirdlərin fərdi fərqlərini tanımalı, bu fərqlərə

cavab verməli və şagirdlərin ehtiyaclarına uyğun tədris metodlarını inkişaf etdirməlidirlər ki, bütün təhsil alanlar ən çox faydalana bilsinlər [UNESCO, 2001]. Bu kontekstdə əlilliyindən asılı olmayaraq bütün şagirdlər eyni məktəbin eyni siniflərində birgə təhsil almalı, inklüziv təhsilin əsas prinsipləri nəzərə alınmaqla ümumbəşəri dəyərlərə, yüksək iştirakçılığa və demokratiyaya malik sinif mühiti yaradılmalıdır. Bunlara əlavə olaraq, təlim-tədris prosesində şagird müxtəlifliyini effektiv şəkildə əks etdirmək üçün diferensiallaşdırılmış təlimdən istifadə edilməlidir. Sosial əsaslandırma ondan ibarətdir ki, inklüziv məktəblərdə təhsil alan bütün şagirdlər şagirdlərin fərdi fərqliliklərə mənfi münasibətinin qarşısını ala bilər.Bu o deməkdir ki, o, daha ədalətli və ayrı-seçkiliyə yol verməyən, inklüziv cəmiyyətin əsasını təşkil edə bilər [UNESCO, 2001]. Şagirdlərin oxuduğu sinif otaqlarını kiçik bir nümunəyə endirilmiş bir cəmiyyətin əksi hesab etmək olar. Müvafiq olaraq, sinifdə şagirdlər müxtəlif dinlərə, dillərə, irqlərə və etnik qruplara aid ola bilər. Onların miqrasiya və ya fəlakətdən təsirlənmək kimi vəziyyətləri ola bilər. Digər tərəfdən, sinifdə ədəbiyyat, incəsənət, idman və texnologiya kimi sahələrdə akademik uğur qazanan və fəal olan tələbələr də ola bilər. Belə müxtəlifliyin olduğu bir mühitdə zənginləşmə mənbəyi kimi fərdi fərqliliklərdən faydalanmaq və onları ön plana çıxarmaq vacibdir. İqtisadi əsaslandırma o deməkdir ki, bütün uşaqların birlikdə təhsil alması dövlətlər üçün daha az xərc tələb edəcək, çünki o, müxtəlif əlillik qrupları üzrə ixtisaslaşmış məktəblərə (xüsusi təhsil məktəbləri, istedadlı məktəblər və s.) ehtiyacı aradan qaldıracaq. Buna görə inklüziv məktəblərin tikintisi, avadanlıq və müəllim xərcləri ilə yanaşı, digər sabit xərclərə (təbii qaz, işıq, su və s.) qənaət etmək və ya bu büdcəni inklüziv məktəblərin inkişafına sərf etmək olar. Onu da demək olar ki, məzmunu tarix boyu inkişaf edən inklüziv təhsilin yoxsulluğun, müharibələrin, ayrı-seçkiliyin və ədalətsizliyin davam etdiyi bir dünyada bütün cəmiyyətlərdə eyni dərəcədə inkişaf etməsini gözləmək olmaz. Bu baxımdan dünyanın müxtəlif qitələrində, müxtəlif ölkələrdə, həmin ölkələrin müxtəlif coğrafi bölgələrində, hətta eyni şəhərin fərqli bölgələrində belə təhsildə qarşıya çıxan problemlərdə fərqliliklər müşahidə oluna bilər. Buna görə də inklüziv təhsilin məqsədləri sinif və məktəb kimi mikro miqyasda müəyyən edilməlidir. Məsələn, sinifdə əcnəbi şagirdlərə qarşı qərəz varsa, ilk növbədə bu qərəzlərlə mübarizə aparılmalıdır. Məktəbdə fiziki qüsurlu şagird varsa, ilk addımı məktəb binasında pandus və ya lift tikmək olar [Amaç, 2021].

**Azərbaycanda təhsildə bərabərsizliyin qarşısının alınması üçün atılan addımlar, inklüziv təhsil.**

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, "Təhsil haqqında" qanunun 5-ci maddəsində dövlət hər bir vətəndaşa cinsindən, irqindən, dilindən, dinindən, siyasi baxışlarından, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən və ya sağlamlıq vəziyyətindən asılı olmayaraq, təhsil almaq imkanını təmin edir və ayrı-seçkiliyə yol verilməməsi üçün təminat yaradır. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiqlənən "2018-2024-cü illərdə sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud şəxslərin digər şəxslərlə bərabər səviyyədə təhsil hüququna malik olmasını və onlar üçün maneəsiz təhsil mühitinin yaradılmasını əsas hədəf kimi müəyyən edir. Prinsiplər əsasən bunlardan ibarət idi: Azərbaycan Respublikasında təhsilin bütün pillələri üzrə sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılmış infrastrukturun yaradılması təmin edilir. Eyni za-

manda, informasiya texnologiyalarının tətbiqi ilə sağlamlıq imkanları məhdud şəxslərin məlumat əldə etmək imkanları genişləndirilir. Məktəbəqədər, ümumi və peşə təhsili proqramlarında da sağlamlıq imkanları məhdud şəxslərin təhsildən faydalanması digər şəxslərlə eyni səviyyədə təmin edilir. Həmçinin, inklüziv təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üçün məlumat bazası yaradılır və onların təhsilə cəlb edilməsi imkanları yeni qaydalar əsasında qiymətləndirilir. Əhalinin sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqları barədə məlumatlılıq səviyyəsi artırılır.

Azərbaycanda məktəbəqədər dövrdə sağlamlıq imkanları məhdud uşaqlarla bağlı işlərin yetərli olmaması, maarifləndirmənin zəif səviyyəsi və bu mövzuya mediada kifayət qədər yer ayrılmaması ilə əlaqələndirilir.

Bu prinsiplərə uyğun olaraq, beynəlxalq və milli öhdəliklərin icrası istiqamətində təhsil sistemində mühüm addımlar atılır. Ölkədə inklüziv təhsilin keyfiyyətini təmin etmək məqsədilə inklüziv siniflər təşkil edilən ümumi təhsil müəssisələrinin sayı artırılır, əlilliyi olan uşaqların təhsil hüququnun təminatına diqqət yetirilir, təhsilin keyfiyyəti yaxşılaşdırılır və məktəblərdə kadr potensialı gücləndirilir.

Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) 2018-ci ildən etibarən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və BMT-nin Uşaq Fondu (UNICEF) ilə birgə müxtəlif fəaliyyətlər həyata keçirir. 2018-2020-ci illər ərzində əlilliyi olan uşaqların ümumi təhsil müəssisələrində keyfiyyətli təhsil imkanlarını dəstəkləmək məqsədilə Müəllim İnkişafı Mərkəzləri (bəzi hallarda Resurs Mərkəzləri kimi də tanınır) yaradılıb. Bakı, Gəncə, Sumqayıt, Quba, Şəki, Ağcabədi və Qazax olmaqla 7 regionda seçilmiş 9 məktəbdə yaradılan bu mərkəzlər müəllimlərin peşəkar inkişafını təmin etməyə yönəlib.

Azərbaycanda təhsildə inklüzivlik inkişaf etməkdə olan bir sahədir, lakin bərabərsizlik hələ də bir çox aspektdə özünü göstərir. İnklüziv təhsil, xüsusilə əlilliyi olan şagirdlər, kənd rayonlarından olan şagirdlər və digər həssas qrupların təhsilə tam çıxışını təmin etmək üçün bir mexanizmdir.

**İnklüziv təhsilə ehtiyacı olan uşaqların müəyyənləşdirilməsi**

İnklüziv təhsilə ehtiyacı olan uşaqların müəyyənləşdirilməsi üçün bir çox halda poliklinikalarla əlaqə saxlanılır. Bildiyimiz kimi, yerli təhsil idarəetmə orqanlarının nəzdində yerlərdə psixoloji-tibbi-pedaqoji komissiyalar fəaliyyət göstərir və onlar poliklinikalarla əməkdaşlıq çərçivəsində sağlamlıq imkanları məhdud olan 6 yaşı tamam olmuş uşaqları müəyyənləşdirirlər. Bundan sonra onlar inklüziv təhsilə cəlb olunurlar. [Xələfov. A, 2024]. Ölkəmizdə ümumi təhsil müəssisələrində inklüziv təhsilin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2023-cü il tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnklüziv təhsilin təşkili Qaydası" ilə tənzimlənir. Burada əsas məqamlardan biri budur ki, ilk növbədə, inklüziv təhsilin təşkil olunacağı məktəbi müəyyənləşdirib sonra ora cəlb olunacaq uşaq axtarılmasın. Birinci, ərazidə inklüziv təhsilə cəlb olunacaq sağlamlıq imkanları məhdud uşaq aşkar olunur, sonra uşağa yaşayış yerinə yaxın məktəbdə inklüziv sinif təşkil edilir [Xələfov A, 2024].

İnklüziv təhsil üçün ümumi təhsil müəssisələrinin infrastrukturunun sağlamlıq imkanları məhdud uşaqlar üçün əlçatan olması məqsədilə tədris ilinin başlamasından əvvəl müvafiq tikinti və təmir işləri həyata keçirilir. Eyni zamanda, pedaqoji heyət inklüziv təhsil sahəsində müvafiq təlimlərə cəlb edilir. Lakin, bu, o demək deyil ki, hər zaman bu müəssisələrə sağlamlıq imkanları məhdud uşaqlar qəbul olunacaq. Hər il bu cür uşaqların məktəblərə daxil olması halında,

həmin müəssisə xüsusi təhsil məktəbinə çevrilə bilər.

Bu kontekstdə inklüziv təhsilin əsas prinsiplərindən biri, uşaqların öz yaşayış yerlərinə yaxın olan və icmalarında yaşayan həmyaşıdları ilə birlikdə təhsilə cəlb olunmasıdır. Bu yanaşma sağlamlıq imkanları məhdud uşaqların yalnız təhsil almasına deyil, eyni zamanda öz icmalarına inteqrasiya olunmasına da şərait yaradır. Bu, onların sosial mühitdə daha aktiv iştirak etmələrini və həmyaşıdları ilə daha sıx əlaqələr qurmalarını təmin edir. [Xələfov. A, 2024].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2023-cü il tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnklüziv təhsilin təşkili Qaydası"nın 3.3-cü bəndinə uyğun olaraq, inklüziv təhsil həyata keçirən ümumi təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqlara xüsusi təhsillə təminat məqsədilə loqopedik xidmətlər təqdim olunur. Bu məktəblərdə çalışan loqopedlər, müxtəlif məhdudiyyətləri olan uşaqların təlim prosesinə dəstək verməklə, onların inkişafına kömək edirlər.

Hazırda loqopedik xidmətin təşkili üçün mövcud normativ hüquqi baza əsasında resurslardan istifadə edilərək inklüziv təhsilin qurulmasına başlanılıb. Gələcəkdə, bu prosesin daha mütəşəkkil və sistemli bir şəkildə normativ hüquqi aktlarla tənzimlənməsi planlaşdırılır. Bu yanaşma, inklüziv təhsilin daha səmərəli şəkildə həyata keçirilməsinə və sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasına imkan yaradacaq.

**DİM, 4-cü məqsəd**

2015-ci ildə BMT-yə üzv dövlətlər, 2030-cu ilədək yoxsulluq, bərabərsizlik, xəstəlik, iqlim dəyişikliyi və digər inkişaf problemlərini həll etmək məqsədilə dayanıqlı inkişaf məqsədləri (DİM) adlı çərçivə sənədini qəbul etdilər. Bu çərçivə, heç kimin geridə qalmadığını və unudulmadığını təmin edən hərtərəfli bir yanaşma təqdim edir. Sənəd 17 məqsəd və 169 hədəfdən ibarətdir ki, bunlar arasında yoxsulluğa və aclığa son qoyulması, yaxşı səhiyyə və rifah, keyfiyyətli təhsil, gender bərabərliyi və digər mühüm məsələlər yer alır. Qəbul edilən məqsədlərdən biri, yəni 4-cü məqsəd (DİM-4), keyfiyyətli təhsilə yönəlir [BMT, DİM, 2015].

DİM-4, inklüziv və bərabər səviyyədə keyfiyyətli təhsilin təmin edilməsini, həmçinin hamı üçün ömür boyu öyrənmə imkanlarının təşviqini hədəfləyir. Bu məqsəd, yalnız əsas səriştələrin səmərəli mənimsənilməsini deyil, eyni zamanda sosial və mədəni həyat baxımından təhsil proseslərinin nəticələrini də əhatə edir. Bu qlobal öhdəlik, təhsil siyasəti, planlaşdırma, tətbiqetmə və öyrənmə proseslərinin və nəticələrinin yaxşılaşdırılması sahələrində mühüm təsirlər yaradır.

Bu sahələr arasında müəllimlərin təhsili, təlimin qiymətləndirilməsi, davamlı peşəkar inkişaf, təhsil proqramlarının, tədris və təlim materiallarının hazırlanması, məktəb rəhbərliyi və pedaqoji yanaşmalar yer alır. Təlimin qiymətləndirilməsi, öyrənmənin nəticələrini və inkişafını qiymətləndirmək, ölçmək və sənədləşdirmək üçün müxtəlif metod və vasitələrdən istifadə edilir. Qiymətləndirmələr, öyrənənlərin nə bildiklərini, öyrəndikləri ilə nə edə biləcəklərini müəyyənləşdirmək üçün bir çox mənbədən məlumat toplayır, öyrənməyə imkan verən kontekstləri müəyyən edir və bu prosesə mane ola biləcək amilləri ortaya qoyur.

**Problemin aktuallığı.** Təhsildə bərabərsizlik problemi qlobal miqyasda geniş yayılmış və həll edilməli olan əsas məsələlərdən biridir. İqtisadi inkişafın, cəmiyyətlərdə sosial ədalətin təmin edilməsinin və demokratiyanın möhkəmləndirilməsinin təməli keyfiyyətli və bərabərhüquqlu təhsil imkanlarından asılıdır. Hazırda bir çox ölkədə, o cümlədən Azərbaycanda, regionlararası və sosial qruplar arasında təhsilə çıxış imkanları və təhsil keyfiyyətində kəskin fərqlər

mövcuddur. Bu bərabərsizliklər daha çox kənd və şəhər məktəbləri, zəngin və kasıb ailələr, həssas qruplar arasında görünür. Beynəlxalq təşkilatların apardığı araşdırmalar, məsələn, bu fərqlərin təhsilin erkən mərhələlərində ortaya çıxdığını və zaman keçdikcə daha da dərinləşdiyini göstərir. Bu baxımdan, təhsildə bərabərsizliklərin aradan qaldırılması təkcə təhsil sahəsinin deyil, həm də sosial ədalət və davamlı inkişaf məsələlərinin aktuallığını təşkil edir.

**Problemin elmi yeniliyi.** Məqalədə təqdim edilən elmi yenilik, təhsildə bərabərsizlik probleminin inklüziv təhsil yanaşması çərçivəsində daha geniş şəkildə araşdırılması və təhlil edilməsidir. İnklüziv təhsil təkcə fiziki və zehni məhdudiyyətləri olan şagirdləri deyil, sosial-iqtisadi cəhətdən dezavantajlı olan qrupları da əhatə edir. Bu yanaşma, fərdi müxtəlifliklərin təhsil mühitində zənginlik kimi qəbul edilməsi və fərdlərin fərqliliklərinə uyğun tədris metodlarının tətbiq olunması zərurətini ön plana çıxarır. Məqalədə həmçinin, beynəlxalq təhsil qiymətləndirmə sistemləri nəticələrinin analizi, bu qiymətləndirmələrin təhsildə bərabərsizliklərə təsiri və ölkələrarası rəqabətin təhsilin keyfiyyətini artırmaqda oynadığı rol geniş şəkildə öyrənilir. Elmi yenilik həmçinin təhsil sahəsində həyata keçirilən islahatların daha effektiv yollarını təklif etməklə, təhsilin inklüzivliyini artırmaq üçün yeni metodoloji yanaşmaları təqdim edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə təhsildə bərabərsizliyin aradan qaldırılması üçün təklif olunan inklüziv təhsil yanaşmasının praktik tətbiqi çox mühüm əhəmiyyət kəsb edir. İnklüziv təhsil modeli bütün şagirdlərin, o cümlədən fiziki, zehni, sosial-iqtisadi və mədəni baxımdan fərqli olan şagirdlərin eyni sinifdə təhsil almasını və bu prosesdə onların fərdi ehtiyaclarına uyğun təlim metodlarının tətbiqini nəzərdə tutur. Bu yanaşma, Azərbaycanda və dünyanın digər ölkələrində təhsildə mövcud olan bərabərsizliklərin azaldılması üçün məktəblərdə tədris metodlarının diferensiallaşdırılmasına və inklüziv təhsilin genişləndirilməsinə yönəlmiş siyasətlərin tətbiqinə təkan verə bilər. Bundan əlavə, bu yanaşma müəllim hazırlığı proqramlarının yenidən qurulmasına və pedaqoji təlimlərin daha çox inklüzivliyə yönəldilməsinə imkan yaradaraq, müəllimlərin təhsil sistemindəki bərabərsizlikləri aradan qaldırmaq üçün daha hazırlıqlı olmalarını təmin edəcək. Beləliklə, təhsildə bərabərsizliklərin azaldılması cəmiyyətin sosial-iqtisadi inkişafına müsbət təsir göstərə bilər, yoxsulluğun azalmasına və sosial ədalətin möhkəmlənməsinə xidmət edə bilər.

## Ədəbiyyat


1. Amaç, Z. Kapsayıcı eğitim ve ilkokul öğretmenleri: sistematik bir inceleme. *Elektronik Eğitim Bilimleri Dergisi, 10*(19), 2021. 74-97 s.

2. Ayvacı, H. Ş., & Yamaçlı, S. Kapsayıcı eğitim konulu hizmet içi eğitim almış fen bilimleri öğretmenlerinin ders tasarımlarına bakış açısı. *Trakya Eğitim Dergisi, 12*(1), 2021. 203-220 s.

3. Graham, L. J. Inclusive education in the 21st century. In *Inclusive education for the 21st century.*Routledge, 2020. 3-26 s.

4. Xudaverdiyeva, T. "İnklüziv təhsildə təlimin təşkili prinsipləri: perspektivlər və nəticələr". "Azərbaycan məktəbi" jurnalı, 2021. №3

5. Öner, G. *Kapsayıcı Eğitim Yaklaşımıyla Sosyal Bilgiler Ogretimi: Bir Eylem Araştırması* (Doctoral dissertation, Anadolu University, 2022

5. Palabıyık, T., & Sakız, H. Kuramdan Uygulamaya Kapsayıcı Eğitim: Ortaöğretim

İngilizce Dersi Kapsayıcı Öğretim Programının İncelenmesi ve Öneriler. *Journal of Children's Rights and Education*, *2*(1), 2021. 11-39 s.

6. Stubbs, S. Inclusive education. *Where there are few resources. Oslo, The Atlas Alliance Publ.* 2008.

7. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu

8.https://www.unesco.org/en/inclusion-education

9.https://as-journal.edu.az/timss-beyn%C6%8Flxalq-qiym%C6%8Ftl%C6%8Fndirm%C6%8Fsi-t%C6%8Fhsil-siyas%C6%8Ftinin-mu%C6%8Fyy%C6%8Fnl%C6%8Fsdirilm%C6%8Fsind%C6%8F-al%C6%8Ft-kimi

10.https://arti.edu.az/f%c9%99aliyy%c9%99timiz/m%c9%99zmun-v%c9%99-qiym%c9%99tl%c9%99ndirm%c9%99/inkluziv-t%c9%99hsil/

**Л.Н. Маммедли**

**Неравенство в образовании**
**Резюме**

В данной статье обсуждаются причины и последствия неравенства в образовании. Обращается внимание на различия между городскими и сельскими школами в Азербайджане, включая несоответствия в доступе к образовательным ресурсам и качеству, квалификации учителей и поддержку местных сообществ. Также исследуется влияние языка, культуры и экономического статуса среди азербайджанцев на образовательное неравенство. Подчеркивается необходимость реализации соответствующих политик и создания инклюзивной образовательной системы для устранения этих неравенств.

**L.N. Mammedly**

**Educational inequality**
**Summary**

This article discusses the causes and effects of educational inequalities. It highlights the disparities between urban and rural schools in Azerbaijan, including discrepancies in access to educational resources and quality, the qualifications of teachers, and support from local communities. The impact of language, culture, and economic status among Azerbaijanis on educational inequality is also explored. The necessity of implementing appropriate policies and establishing an inclusive education system to address these inequalities is emphasized.

**Redaksiyaya daxil olub:** 03.11.2024